# SDU-da beynəlxalq elmi konfrans keçirilib

**Sumqayıt Dövlət Universitetində (SDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 iliyinə həsr olunan "Azərbaycanda dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafı" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans keçirilib.**



Konfransda Azərbaycan universitetləri ilə yanaşı, Türkiyə, Rusiya, Estoniya, Ukrayna, Almaniya və Qazaxıstanın aparıcı universitetlərinin alimləri iştirak ediblər. Plenar iclası giriş sözü ilə açan SDU-nun prorektoru, professor Ramazan Məmmədov bildirib ki, 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqilliyin, suverenliyin qorunması, ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi mümkün oldu. Bütün bunlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı.

Sonra "Heydər Əliyev Azərbaycan dövlətinin xilaskarıdır" mövzusunda məruzə edən Tarix və coğrafiya fakültəsinin dekanı, professor Adil Baxşəliyev bildirib ki, Heydər Əliyevin ölkənin müasir tarixində ən böyük xidmətlərindən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanılması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndərin adı ilə bağlıdır.

1987-ci ildə Heydər Əliyev SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırıldıqdan sonra ermənilərin cinayətkar niyyətləri reallaşdı. 1987-ci ildən etibarən Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların məcburi şəkildə çıxarılması prosesi başladı ki, bu da 1991-ci ilədək davam etdi. Erməni millətçilərinin şovinist siyasəti bütün XIX-XX əsrlər boyu mərhələ-mərhələ davam etmiş, deportasiyalar və soyqırımları nəticəsində yüzminlərlə dinc azərbaycanlı amansız formada məhv edilmişdir. Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman bu istiqamətdə verilən ilk hüquqi sənəddir" deyə professor söyləyib.

Sonra Türkiyə Respublikasının Zonquldak Bülent Ecevit Universitetinin professoru Nurettin Hatunoğlu, T. K. Jurgenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasının professoru, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Mendıqanım Şaymerdenova, SDU-nun kafedra müdiri, professor Şirxan Səlimov geniş məruzələrlə çıxış ediblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-20 aprel.- S.11.